DOI: https://doi.org/10.36719/2706-6185/26/11-19

**Cavadxan Qasımov**
Naxçıvan Dövlət Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
cavadxan.yusifoglu@ndu.edu.az

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAF GÖSTƏRİCİLƏRİNİN TƏŞƏKKÜLÜ YENİ MƏRHƏLƏDƏ

**Xülasə**

Məqalədə, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olaraq, Naxçıvan Muxtar Respublikasının davamlı sosial-iqtisadi inkişafından söz açılmışdır. Göstərilmişdir ki, ölkənin 14 iqtisadi rayonundan biri olaraq, Naxçıvan iqtisadi rayonu özünün iqtisadi potensialına görə məhsuldarlıq göstəricilərinə malik lmaqla, daha çox, iqtisadiyyatın aparıcı sahələrinin perspektivliliyinə zəmin yaratmaqdadır.

Xüsusilə də, muxtar respublika əhalisinin 70 faizdən artıq hissəsinin kənd yerlərində yaşaması, iqtisadiyyatın, xammal-emal-istehsal-sənaye həlqəsinin qırılmazılığını da yarada bilmişdir. Bu da, təbii olaraq, əmək ehtiyatlarından istifadə olunmasında, təsərrüfatçılıq imkanlarının genişlənməsində və nəticə etibarı ilə məşğulluq səviyyəsinin yüksəldilməsi ilə, məhsuldarlıq göstəricilərinin artmasında özünü göstərməkdədir. Bütün bunlar, dövlətin tənzimləyici mexanizmləri ilə daha etibarlı xarakterə malik olmaqdadır.

Eyni zamanda, bu istiqamətdə, 2004-cü ildən dörd mərhələ üzrə icrası davam edən regional inkişaf üzrə Dövlət proqramlarından söz açılmış, Naxçıvan Muxtar Respublikası üçün də nəzərdə tutulan tədbirlərə yer verilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illər üzrə sosial-iqtisadi inkişafını nəzərdə tutan Dövlət proqramının da iqisadi və sosial əhəmiyyətinə toxunulmuşdur. Statistik rəqəmlərdən istifadə olunaraq, elmi cəhətdən əsaslandırılmaqla, şəkillər və diaqramlar vasitəsilə təqdim olunmuşdur.

***Açar sözlər:*** *iqtisadiyyat, təsərrüfatçılıq, xammal, emal, sənaye, məşğulluq, əmək ehtiyatları*

**Javadkhan Gasimov**
Nakhchivan State University
PhD in Economics
cavadxan.yusifoglu@ndu.edu.az

# The organization of development indicators of socio-economics of the Nakhchivan Autonomous Republic is in a new phase

**Abstract**

The article talks about the continuous socio-economic development of the Nakhchivan Autonomous Republic as an integral part of the Republic of Azerbaijan. It has been shown that, as one of the 14 economic regions of the country, Nakhchivan economic region, having productivity indicators according to its economic potential, lays the groundwork for the prospects of the leading sectors of the economy.

In particular, the fact that more than 70 percent of the autonomous republic's population lives in rural areas has created the unbreakability of the economy, the raw material-processing-production-industry ring. This, of course, manifests itself in the use of labor resources, the expansion of economic opportunities and, as a result, the increase in the level of employment and the increase in productivity indicators. All these are becoming more reliable with the regulatory mechanisms of the state. At the same time, in this direction, the State programs for regional development, which have been implemented in four stages since 2004, were mentioned, and measures planned for the Nakhchivan Autonomous Republic were also mentioned. In addition, the economic and social

importance of the State program, which envisages the socio-economic development of the Nakhchivan Autonomous Republic for 2023-2027, was also touched upon. Using statistical numbers, scientifically justified, presented through pictures and diagrams.
***Keywords:*** *economy, farming, raw materials, processing, industry, employment, labor resources*

## Giriş

Regional iqtisadi inkişafın mühüm göstəricilərindən birini də sosial-iqtisadi inkişafla bağlı olan məsələlərin təşkili və idarə olunması təşkil etməkdədir. Ölkələrin milli iqtisadiyyatlarının hərəkətverici qüvvəsi olan bu termin, xüsusilə, qısa, orta və uzunmüddətli dövrlər üzrə:

- ərazi istehsal komplekslərinin təşəkkülünü;
- infrastruktur təsisatlarının etibarlılığını;
- demoqrafik tarazlığın qounmasını;
- ətraf mühitin mühafizə olunmasını;
- əmək ehtiyatlarından səmərəli istifadə olunmasını və digər zəruri amillərin təşəkkülünü də şərtləndirməkdədir. Eyni zamanda, sosial-iqtisadi inkişafın mühüm məqsədi, əsasən uzunmüddətli dövrlər üçün xarakterik olub, cəmiyyətin sosial və iqtisadi sahədəki məsələlərinin düzgün istiqamətləndirilməsini və onların səmərəli həlli yollarını özündə əks etdirməklə, dövlət tərəfindən tənzimlənmənin xüsusi formasını ifadə edir (Qasımov, Ələsgərova, 2017: 7). Buradan da aydın olur ki, sosial-iqtisadi inkişaf, dövlətin müvafiq tənzimləyici xüsusiyyətləri və mexanizmlərinə görə qərarlaşmaqla, adından da göründüyü kimi, istər sosial, istərsə də, iqtisadi proseslərin düzgün vəhdəti əsasında qərarlaşmış, beləliklə də, nəticəsi makroiqtisadi mahiyyət kəsb etmiş olan institutsional qanunauyğunluq olmaqdadır. Sosial-iqtisadi inkişafın olduqca mühüm əhəmiyyətinə, bir tərəfdə, təbii, iqtisadi resurslar və onları hərəkət gətirməyi bacaran işçi qüvvəsi, digər tərəfdə isə, bu hərəkətlənmədə həlledici amil olaraq, çıxış edən qayda, qanun, üsul, prosedur və tənzimləmələr özünü göstərməkdədir.

Sosial-iqtisadi inkişafın təmin olunmasında, bütün tərəflərinə görə, bir baxımdan ərazilərin, digər bir baxımdan isə əhalinin yerləşməsi və ixtsaslaşması amilləri mühüm meyarlar olaraq, özünü göstərməkdədir. Qeyd etmək lazımdır ki, bütün bunlar, sosial-iqtisadi inkişafın təmin olunması proseslərində, həmçinin, müvafiq ölkənin iqtisadi rayonlarının ixtisaslaşma xüsusiyyətləri nəzərə alınmaqla, həyata keçirilməkdədir. Məhz bu amil əsasında, dövlətin iqtisadi sahədəki perspektivləri, onun sosial sfera üzrə üstünlükləri və hər iki istiqamət aktual hesab olunmaqla, ümumi əlaqələndirməni həyata keçirmək mümkün olur.

Bəhs olunan amillərin həyata keçirilmiş olduğu dövrlərdə, xüsusilə də, ölkəmizdə regional iqtisadi inkişaf üzrə Dövlət proqramlarının təsdiq olunduğu 2004-cü ildən üzü bəri 20 ilə yaxın bir müddət ərzində ölkənin bütün iqtisadi rayonlarından biri olaraq, Naxçıvan Muxtar Respublikasında da iqtisadi artım artan dinamikada təşəkkül tapmışdır. Mahiyyətinə və makroiqtisadi əhəmiyyətinə görə iqtisadi artım, istehsal olunan istehsal amillərini artırmaqla, yaxud texnika və texnologiyanı təkmilləşdirməklə adambaşına düşən ümumi milli məhsulu artırmaq, istehsal olunmuş olunmuş əmtəə və xidmətlərin kəmiyyətinin istehlak olunmuş əmtəə və xidmətlərin kəmiyyətindən çox olması kimi çıxış etməkdədir (İbadov, 2009: 373).

Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsinin müvafiq məlumatlarının təhlilinə görə, 2004-2020-ci illər ərzində makroiqtisadi göstəricilərin artım dinamikası şəkil 1-in məlumatlarında təqdim olunmuşdur.

**Şəkil 1. 2004-2020-ci illər ərzində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair iqtisadi artım göstəriciləri (dəfə)**




*Şəkil Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Şəkil 1-in məlumatları ölkəmizdə 2004-cü ildən etibarən artıq IV mərhələsinin icrası davam etdirilən regional inkişaf üzrə Dövlət proqramları beşillik mərhələlər üzrə ardıcıl, sistemli və hərəkətverici inkişaf perspektivlərinin və göstəricilərinin nəticəsi və məcmusu olaraq çıxış etməkdədir. Ölkəmizin müasir bazar münasibətləri şəraitində və davam edən iqtisadi islahatlar müstəvisində reallaşdırmış olduğu tədbirlər məhz bazar iqtisadiyyatının dərinləşən qanun və tənzimləmələrini də mümkün etməkdədir. Mahiyyətinə görə, bazar iqtisadiyyatı, biri-birinə zəncirvari bağlılığı və əlaqələndirməsi olan bir sıra meyarların qərarlaşmasını nəzərdə tutur və onların həyata keçirilməsinə üstünlük verir ki, bunlar da, sosial-iqtisadi inkişafın məhz bu əsasda təmin olunmasına təminat yaratmış olur. Həmin meyarlar şəkil 2-nin məlumatlarında öz əksini tapmışdır:

**Şəkil 2.**

**Bazar iqtisadiyyatının mahiyyətinin izah olunması**




*Şəkil müəllif tərəfindən hazırlanmışdır*

Şəkil 2-nin məlumatlarında (Qəribov, 2007: 10) yer alan amillər, ilk növbədə iqtisadi azadlığın təmin olunmasından ibarət olan kompleks tədbirlər sistemindən ibarət olmaqdadır.

Regional inkişaf üzrə tədbirlər, xüsusilə, beş illik mərhələlər üzrə təsdiq olunmaqla, ölkənin milli iqtisadiyyatı üçün aktual olan, zəruri mahiyyət kəsb edən və uzunmüddətli perspektivliliyə malik olan tədbirlərdən ibarət olmaqdadır. Həmçinin həmin tədbirlər, özündə iqtisadi rayonlar üzrə üstün və ya zəif tərəflərin ortaya qoyulması, təhlil olunması, araşdırılması, elmi və məntiqi nəticələrə gəlinməsi kimi məsələlərdən ibarət ola bilər. Bu mənada, ölkələr, milli iqtisadiyyatları üzrə tənzimləmə tədbirlərinin gedişində, regional və milli mahiyyət kəsb edən tədbirlərin yer almış olduğu strategiyalar, konsepsiyalar və Dövlət proqramları qəbul edir və həyata keçirməyi məqsədəuyğun hesab edirlər.

Azərbaycan Respublikasında müasir müstəqillik illərinin bir-birini əvəz edən mərhələlərində milli iqtisadiyyatın müxtəlif sahələrinə xas olan tədbirlərin yer almış olduğu tənzimləmələr aktuallığı ilə seçilməkdədir. Uzunmüddətli iqtisadi və sosial təyinatlı tədbirlər, ölkəmizin cari və gələcək dövrlər üzrə hədəflərini əlçatan etməkdədir. 2004-cü ildən etibarən Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları təsdiq olunub və uğurla həyata keçirilmişdir. Bunlar, 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illəri əhatə etməkdədir. Artıq dördüncü mərhələnin icra olunması sahəsindəki proseslər cari il üzrə yekunlaşmaqda və həmin tədbirlərin tamamlanmış olduğu mərhələdyik. Hər bir Dövlət proqramında ölkəin makroiqtisadi inkişafı üçün zəruri əhəmiyyət kəsb etmiş olan məsələlər öz yerini almışdır. Xüsusilə də, milli iqtisadi inkişaf müstəvisində aktuallıq kəsb etmiş olan sosiallaşma və sənayeləşmə siyasətinin hərəkətverici qüvvəsi olan proseslərin əlaqələndirilməsi və bu sahədəki tədbirlərin davam edən islahatlara düzgün istiqamətləndirilməsi məsələləri Dövlət proqramında diqqət mərkəzində saxlanılmaqdadır. Çünki, sosial-iqtisadi inkişaf anlayışında, cəmiyyətin artmaqda olan tələbatının ifadə oluna bildiyi, insanların təhsilinin, sağlamlığının, dünyagörüşünün, mədəni ketfiyyətlərinin təmin olunduğu, ölkənin elmi-texniki inkişafı ilə müşayiət olunan iqtisadiyyatın səmərəlilik göstəricilərindən söz açılır və ona yer verilir (Qasımov, Ələsgərova, 2017: 33).

Təbii olaraq, onu qeyd etmək olar ki, ölkəmizin 14 iqtisadi rayonundan biri də Naxçıvan iqtisadi rayonudur. Buna görə də, təsdiq icra olunan Dövlət proqramlarında nəzərdə tutulan tədbirlər, digər iqtisdi rayonlar, kimi Naxçıvan Muxtar Respublikası üçün də nəzərdə tutulmaqdadır. Onu şəkil 3-ün məlumatlarında görmək olar:

**Şəkil 3.**
**Dövlət proqramlarında Naxçıvan Muxtar Respublikası üçün nəzərdə tutulan tədbirlər**

| 2004-2008 | 2009-2013 | 2014-2018 | 2019-2023 |
|---|---|---|---|
| 57 | 46 | 57 | 18 |

*Şəkil müəllif tərəfindən hazırlanmışdır*

Şəkil 3-ün məlumatları əsasında onu qeyd etmək olar ki, hər dörd Dövlət proqramının icrası zamanı Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf tədbirləri əhatəliliyinə görə seçilmiş və icra olunmuşdur. Bunlar, infrastruktur təşkilatlanması, kommunal təminatlar, texnoloji inkişaf, innovativ təsisatlar, alternativ imkanlar üzrə mexanizmlər və digər mexanizmlərdən ibarət olmaqdadır. Etibarlı, təminatqabiliyyətli və fasiləsiz istehsal prosesi üçün yardımçı xarakter daşıyan istehsal və qeyri-istehsal sahələrinin kompleksidir. Başlıca olaraq, istehsal infrastrukturlarına nəqliyyat, enerji təchizatı və rabitə daxildir. Bununla yanaşı, təhsil, səhiyyə, yollar və s - də infrastruktur sahələrinə aid olunur (Ağayev, 2005: 150).

İqtisadi inkişafın indiki mərhələsində, Naxçıvan Muxtar Respublikası dövlətimizin milli iqtisadi quruculuq proseslərindən kifiyət qədər bəhrələnir və özünün malik olduğu iqtisadi potensialla həmin proseslərə dəstək olur. Qeyd olunan Dövlət proqramları ilə yanaşı, Naxçıvan Muxtar

Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı olan tənzimləmə mexanizmlərinin qüvvəyə minməsi nəticəsində bu istiqamətin dayanıqlılıq göstəriciləri daha da dinamika olaraq artmaqdadır. Xüsusilə də, 5 iyun 2023-cü il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış olan 3910 №-li Sərəncamla "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur (9). Həmin Dövlət proqramı, bütün tərəfləri ilə yanaşı, eyni zamanda, bir sıra xüsusiyyətlərinə görə də aktuallıq qazanmaqdadır:

- əvvəlki Dövlət proqramlarında Naxçıvan Muxtar Respublikasına aid olan tədbirlər, digər iqtisadi rayonlarla birlikdə nəzərdə tutulmuş, müəyyən və icra olunmuşdur. Ancaq bu Dövlət proqramı yalnız Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını nəzərdə tutmuşdur;
- muxtar respublika iqtisadiyyatı bütöv halda götürülmüş, onun istehsal və sosial sahələr üzrə infratstruktur təsisatları nəzərə alınmış və yüksək perspektivliliyə malik olması əsaslandırılmışdır;
- muxtar respublika iqtisadiyyatının inkişaf prosesləri nəticə etibarı ilə, ölkənin milli iqtisadiyyatına hərəkətverici təsirinə görə əsaslandırılmış, bu sahədə, onun güclü tərəfləri və imkanları nəzərə alınmışdır;
- iqtisadiyyatın ənənəvi sahələri ilə yanaşı, eyni zamanda, onun qarşıdakı illər üzrə müəyyən olunan prioritet istiqamətləri də diqqətdə saxlanılmışdır. Bu sferada, turizm idarəetməsi, innovativ təminatlar, enerji təhlükəsizliyi, "Yaşı Enerji"yə keçid tədbirləri, Zəngəzur dəhlizinin perspektivləri, xarici iqtisadi əlaqələrin yeni keyfiyyət mərhələsi, investisiya mühitinin daha səmərəli təşkili, insan potensialının inkişafı, elm, təhsil, tədris, ixtisaslaşma və s. kimi məsələlər özünün geniş aktuallığına və əhəmiyyətinə görə fərqlənmişdir;
- nəzərdə tutulur ki, xammal potensialı əsasında mövcud sənaye müəssisələrinin potensialının artırılması və yeni sənaye müəssisələrinin yaradılması təmin olunsun və bu yolla, davamlı sosial-iqtisadi inkişaf təmin olunsun;
- Dövlət proqramında nəzərdə tutulan tədbirlər, müddəalar və əsaslandırmalar, şaxəli iqtisadi və sosial mahiyyətli idarəetmə keyfiyyətlətinin ifadəsi olub, özündə əmək ehtiyatlarından səmərəli istifadə imkanlarını əks etdirmiş və səmərəli məşğulluq göstəricilərini nəzərdə tutmaqadır.

Qeyd etmək olar ki, dövlətin iqtisadi və sosial sahələr üzrə reallaşdırmış olduğu tədbirlər əvvəlki dövrlərdə də, muxtar respublika iqtisadiyyatının kəmiyyət və keyfiyyət göstəricilərinin davamlı, ardıcıl və sistemli inkişafı üçün etibarlı zəmin yaratmışdır. Bu Dövlət proqramı isə, həmin tədbirlərin sosial, iqtisadi və məntiqi davamı olaraq da, olduqca əhəmiyyətli olmaqdadır. Olduqca zəruri və strateji hədəfləri özündə əks etdirən bu, mühüm dövlət sənədində zəruri məsələlərdən birini də, Naxçıvan Muxtar Respublikasında iqtisadi aktivliyin artırılması məqsədləri təşkil etməkdədir. Eyni zamanda, bu məqsədlər, ərazinin etibarlı iqtisadi inkişaf bölgəsinə çevrilməsini təmin edəcək təsisatlardan ibarət olmaqdadır.

Nəzərdə tutulmuş olan məqsədlərin həyata keçirilməsini təmin etmək üçün, muxtar respublika ərazisinin ticarət və ticarət qovşağı olaraq, inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Belə ki, üç ölkə ilə sərhəd zonasında yerləşməsi Naxçıvan Muxtar Respublikasına ticarət qovşağı, xüsusilə malların təkrar ixracı (paylaşdırılması) yeri və ya sərhədyanı bazar kimi istifadə üçün əlverişli şərait yaradır. Bu məqsədlə, Naxçıvan Muxtar Respublikasına gətirilən bütün malların (siyahı üzrə Azərbaycan Respublikasında istehsal olunan mallar istisna olmaqla) idxal rüsumundan azad olunması, habelə, Naxçıvan şəhərində malların xarici ölkə vətəndaşlarına vergi və gömrük nəzarəti altında idxal rüsumları və əlavə dəyər vergisi olmadan satılması üçün orada Ticarət Mərkəzinin yaradılması məqsədəuyğundur (5).

Dövlət proqramı ilə tanış olduqca, aydın olur ki, onun tərtib olunması, tədbirlərin ardıcıllığı diqqətə alınmış, muxtar respublika iqtisadiyyatının sahə strukturunu tamamilə ifadə edən tərzdə tamamlanmış və qarşıdakı dövrlər üzrə mütərəqqi addımların atılması məqsəduyğun hesab olunmuşdur. Dövlət proqramının "Qlobal trendlər" adlı bölməsində regional inkişafın mahiyyətindən, bu sahədə beynəlxalq təcrübənin nəzərə alınasından və onun səmərəliliyindən söz açılır və bu, mahiyyətinə görə müvafiq illər üzrə bir sıra təminatların mümkün olmasına zəmin yaratmış olur. Həmin təminatları şəkil 4-ün məlumatlarında görmək olar:

**Şəkil 4.**

**Regionların sosial-iqtisadi inkişafında beynəlxalq təcrübənin təhlili**




*Şəkil müəllif tərəfindən hazırlanmışdır*

Dövlət proqramının bu bölməsində sosial-iqtisadi inkişaf, bütün tərəflərinə görə həm də tarazlı inkişafın hərəkətverici qüvvəsi olaraq, ifadə olunur. Göstərilir ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız düşmən tapdağından azad olunmuş və ərazi bütövlüyümüz təmin edilmişdir. Bu isə, yeni reallıqlar müstəvisində, Orta Dəhlizin inkişaf perspektivlərini aktuallaşdırmaqla, Zəngəzur dəhlizinin istifadəyə verilməsini gündəmə gətirmiş və bu baxımdan da, Naxçıvan Muxtar Respublikasının tranzit perspektivlərini daha da şaxələndirmişdir. Təbii olaraq, bütün bu proseslərin gedişində milli iqtisadiyyatın diversifikasiya olunması sahəsindəkə hədəflər də reallığa çevrilmiş olacaq.

Latın sözü olub, “diversus” və “facere” sözlərindən əmələ gəlmiş “müxtəlif etmək” mənasını daşıyan diversifikasiya dəyişiklik, müxtəliflik mənasında, iqtisadi anlamında kapitalın təmərküzləşməsi, formalarından biri kimi məhsulun nomenklaturasının genişləndirilməsi, istehsalın bir-birilə əlaqəsi olmayan növlərinin eyni zamanda inkişafını səciyyələndirir (İsmayılov, 2018: 115).

Eyni zamanda, hazırda beynəlxalq təcrübədən də aydın olur ki, istənilən bir dövlətin və onun bölgələrinin, şəhər, qəsəbə və kəndlərinin davamlı sosial və iqtisadi cəhətdən sürətli inkişafında innovativ təminatların həyata keçirilməsinin olduqca zəruri əhəmiyyəti vardır. Məhz Dövlət proqramında nəzərdə tutulan hədəflərin və prioritetlərin bir neçə prinsipə əsaslanmaqla, qərarlaşmış olduğunu görmək olar. Bunlar, həmin hədəflərin, eyni zamanda, qarşıdakı illər üzrə, xüsusilə də, 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinə və onun müvafiq hədəflərinə uyğun olmaqla, reallaşdırılması nəzərdə tutulmuşdur. Həmin hədəfləri şəkil 5-in məlumatlarında görmək olar.

**Şəkil 5.**

**Dövlət proqramının prioritetlərinin əsaslandığı prinsiplər**




*Şəkil müəllif tərəfindən hazırlanmışdır*

Bu sahədə, eyni zamanda, Naxçıvan Muxtar Respubulikası iqtisadiyyatının sahə strukturu üzrə düzgün təşkilatlanma mexanizmlərinə diqqət yetirilmiş və onun aktual sahələrinin əlaqəliliyinə nəzər salınmışdır. İqtisadi inkişafın hazırkı mərhələsində, muxtar respubulika iqtisadiyyatının mövcud vəziyyətinin təhlil olunması ilə:

- ölkənin sənayeləşmə siyasətinə vermiş olduğu töhfələrə nəzər salınmış, xüsusilə də, Şərur Sənaye Məhəlləsinin yaradılması sahəsindəki işlərin ölkənin makroiqtisadi inkişafına hərəkətverici təsirindən;
- investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqindən, o cümlədən, iqtisadiyyata sərmayə qoyuluşunun stimullaşdırılması sahəsindəki proseslərin idarə olunmasından;
- ixracın stimullaşdırılması məqsədilə, bir sıra ölkələrdə reallaşan tədbirlərdə muxtar respublika sahibkarlarının iştirak etməsindən və bu sahədə, dövlət dəstəyinin göstərilməsindən;
- İnfrastruktur layihələrinin həyata keçirilməsindən, xüsusilə də, torpaqların suvarma və meliorasiya təminatının yaxşılaşdırılmasından, torpaq və su ehtiyatlarından səmərəli istifadə olunmasından söz açılmışdır. Burada, 100 milyon kubmetr olan Heydər Əliyev Su Anbarının istifadəyə verilməsindən;
- enerji siyasətinin səmərəli təşkil olunmasından, elektrik enerjisi təchizatının yaxşılaşdırılması sahəsində görülən işlərdən, o cümlədən də, muxtar respublika ərazisində günəş və külək elektrik stansiyalarının istifadəyə verilməsindən, etibarlı enerji təsisatlarının və mexanizmlərinin yaradılmasından;
- muxtar respublikanın təbii qaz təminatının gücləndirilməsindən və bu sahədə uzunluğu 27 km olan Naxçıvan-Şahbuz ortatəzyiqli və uzunluğu 82,2 km olan Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərlərinin tikilərək istifadəyə verilməsindən;
- rabitə və informasiya texnologiyalarının tətbiqi sahəsində etibarlı və dayanıqlı təsisatların yaradılmasında və digər bu kimi tədbirlərdən söz açılmışdır (5).

Müasir iqtisadi inkişafın tələbləri və çağırışları müstəvisində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf proseslərinin tənzimlənməsi bütün tərəflərinə görə perspektivliliyi ilə seçilməkdədir. Dövlət proqramının "Mövcud çağırışlar" bölməsində muxtar respublikada biznes mühitinin daha da yaxşılaşdırılması sahəsində həyata keçiriləcək tədbirlər çərçivəsində Sahibkarlara icazə və lisenziyaların verilməsini, həm də onun vahid mərkəzdən idarə olunması nəzərdə tutulmuşdur. Həmin idarəetmənin təşəkkülü sahəsində "Lisenziyalar və icazələr portalı"nın işləkliyinin təmin olunması, müvafiq sahə üzrə fəaliyyətin məhz bu portal vasitəsilə həyata keçirilməsi mümkün olacaqdır. Qarşıdakı mərhələlərdə, eyni zamanda, muxtar respublikada dövlət xidmətlərinin daha da əlçatan olmasına diqqətin artırılması, o cümlədən, "ASAN xidmət" və "DOST" və digər mərkəzlərin işlərinin təmin olunması və bu sahədəki işlərin sürətləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır (5).

Muxtar respublika iqtisadiyyatında istehsal və xidmət bölmələrinin təşəkkülü, eyni zamanda, təbii ehtiyatlar, xüsusən də, əlvan metallar hesabına hasilat sənayesinin inkişafı nəzərdə tutulmuşdur. Məhz bu təşkilatlanma ilə, ərazidə istehsal proseslərinin fasiləsizliyinin təmin olunması və həmçinin təminatqabiliyyətli olması sahəsində mühüm tədbirlərin keçirilməsi də səmərəli hesab olunmuşdur. Çünki, nəzərə alsaq ki, muxtar respublika iqtisadiyyatında da mühüm istiqamətlərin, daha doğrusu, iqtisadiyyatın aparıcı sahələrinin bir-biri ilə əlaqəli şəkildə olmaqla, diqqətə alınması ilə, hasilat sənayesinin inkişaf etdirilməsinin səmərəliliyi daha da yüksək olacaqdır.

Təbii olaraq, nəzərdə tutulan bu tədbirlər, mahiyyətinə görə, üzvi surətdə uzlaşan aspektlərə (ideoloji, hüquqi, iqtisadi, mədəni, psixoloji, demoqrafik, etnik, təşkilati, regional, məkan və s.) malik olan mürəkkəb strukturlu, inteqral bir anlayışdır olaraq, dövlətin sosial siyasətinin olduqca mühüm tərəflərinin ifadəsi olmaqdadır (Əliyev, Quliyev, 2005: 76).

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası ərazisinin ixtisaslaşmasına və əhalisinin yerləşmə xüsusiyyətlərinə aqrar bölgə olması burada iqtisadiyyatın xammaz bazası əsasında inkişaf etdirilməsində də mühüm göstəriciyə çevrilmişdir. Təbii olaraq, xammal bazasının perspektivlərinin nəzərə alınması, həm də, onunla bağlı olan digər istiqamətlərin də, xüsusilə də, emal və sənaye

sahələrinin də inkişaf etdirilməsinə zəmin yaratmış olacaq. Bu isə mezoiqtisadi baxımdan və aqrar sənaye inteqrasiyası əhəmiyyətinə görə də, mövcud proseslərin səmərəliliyini artırmış olacaq. Dövlət proqramında da nəzərdə tutulmuşdur ki, elə xammal bazası əsasında iqtisadiyyatın aparıcı sahəsi olan və əsas makroiqtisadi göstərici olan ÜDM-nin strukturunda ilk yerdə qərarlaşan sənaye sahəsi üzrə təşkilatlanma mütərəqqi əsaslarda mümkün olacaq. Nəzərdə tutulmuşdur ki, xammal bazası əsasında yeni sənaye müəssisələrinin inşa olunsun ki, burada da, tikinti materialları, qida məhsullarının yaradılması və s. təmin olunsun.

Dövlət proqramı, Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmaq etibarı ilə qarşıdakı mərhələlər üzrə bir sıra zəruri tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edir. Həmin tədbirlər, "mövcud vəziyyətin təhlil olunması" bəndində, "əldə olunmuş nailiyyətlər", "mövcud çağırışlar", burada isə, GZİT (Güclü və Zəif tərəflər, İmkanlar və Təhlükələr) indikatorları ilə öz əksini tapmışdır. Təbii olaraq, muxtar respublika iqtisadiyyatının güclü tərəfləri onun zəif tərəflərinin aradan qaldırılmasına yol açmaqla yanaşı, eyni zamanda, mövcud olan imkanların isə ola biləcək təhlükələrin zərərsizləşdirilməsinə səbəb olacağını qeyd etməyə zəmin yaranmışdır. Bununla yanaşı, bəhs olunan strateji tənzimləmə mexanizminin "Dövlət Proqramının məqsədi və prioritet istiqamətləri" adlı bölməsində "Prioritetlər" olaraq, bəhs olunan tədbirlər, xüsusilə, aktuallıq kəsb etməkdədir. Bunlar, şəkil 6-nın məlumatlarında öz əksini tapmışdır:

**Şəkil 6.**

**Dövlət Proqramının məqsədi və prioritet istiqamətləri**




*Şəkil müəllif tərəfindən hazırlanmışdır*

Qarşıya qoyulan tədbirlərin həyata keçirilməsi məqsədilə, Dövlət proqramında Tədbirlər Planı da təsdiq olunmuşdur. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı üzrə keçmiş, cari və gələcək mərhələlərin sintezindən ibarət olan Dövlət proqramında 2023-2027-ci illərin əhatə olunduğu dövrdə sosial və iqtisadi sahələrin dinamik inkişafının yeni keyfiyyət mərhələsi hədəf olaraq müəyyən olunmuşdur. Burada, eyni zamanda, Naxçıvan Muxtar Respublikasında "Yaşıl enerji" potensialının yaradılması kimi zəruri təsisatların da yaradılması məsələlərinə aktual tədbirlər olaraq yanaşılmış, onun uzunmüddətli səmərəliliyi müstəvisində enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi tədbirlərinin genişləndirilməsi, həmçinin də ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin (minik avtomobilləri, avtobuslar və s.) dövriyyəsinin stimullaşdırılması hədəf olaraq qəbul olunmuşdur. Məlumdur ki, dövlət başçısı tərəfindən işğaldan azad olunan ərazilər, xüsusilə də, Qarabağ və Şərqi Zəngəzur "Yaşıl Enerji Zonası" olaraq elan olunmuşdur.

Azad olunan ərazilərin təsdiq olunan potensialı ümumilikdə, 9200 Meqavat dəyərləndirilir. Bunun, 7200 meqavatı Günəş, 2000 meqavatı isə külək enerjisindən ibarət olmaqdadır (Qasımlı, 2022: 181). Eyni zamanda, Naxçıvan Muxtar Respublikasının da Qarabağ və Şərqi Zəngəzur kimi “yaşıl enerji” zonasına çevrilməsi məsələsi ölkə başçısı tərəfindən müəyyən olunmuşdur. Aydın olduğu kimi, muxtar respublikada elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. 11 iyul 2023-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə qeyd etdiyi kimi, muxtar respublikada, günəş və külək elektrik stansiyalarının inşası da nəzərdə tutulur - ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını “yaşıl enerji” ilə təmin edəcəyik, həm də qonşu ölkələrə də “yaşıl enerji”ni ixrac edəcəyik (10).

Beləliklə, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafina dair 2023–2027-ci illər üçün Dövlət proqramı qarşıdakı mərhələlər üzrə muxtar respublikanın milli miqtisadi quruculuq proseslərindəki rolunu və mövqeyini daha da gücləndirmiş olacaq. Dövlət proqramının həyata keçirilməsi məqsədilə, Tədbirlər Planı da təsdiq olunmuşdur. Orada, 11 prioritet istiqamət üzrə (Şəkil 6-nın məlumatlarında olduğu kimi) ümumilikdə, 81 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

## Nəticə

Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrin tənzimlənməsi sahəsindəki proseslər öz mahiyyətinə görə:

- iqtisadiyyatın bütöv bir halda götürülməsinə və onun sahə strukturunun əlaqəli inkişafına zəmin yaratmış olacaq;
- milli iqtisadiyyat üzrə uzunmüddətli prioritetlərin daha da əlçatan olmasına təkan verəcək və diversifikasiya proseslərini sürətləndirəcək;
- regional iqtisadi idarəetmənin optimal variantlarının, xüsusilə də, bölgələr üzrə təsərrüfatçılıq imkanlarının genişlənməsinə təsir göstərmiş olacaq;
- əmək ehtiyatlarından səmərəli istifadənin əlverişli yollarının müəyyən olunması və etibarlı məşğulluq göstəricilərinin təşəkkülü mümkün olacaq;
- yeni iqtisadi reallıqlara müvafiq olan etibarlı infrastruktur təsisatlarının yaradılması prosesləri daha da məhsuldar olacaq və s.

## Ədəbiyyat

1. Qasımov, C., Ələsgərova, F. (2017). Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik. Dərs vəsaiti. Naxçıvan: Əcəmi.
2. İbadov, S. (2009). İqtisadi nəzəriyyə. Dərslik. Bakı: Şərq-Qərb.
3. Qəribov, A. (2007). Beynəlxalq iqtisadi münasibətlər və gömrük işi (terminlərin qısa izahlı lüğəti). Bakı: Səda.
4. Ağayev, A. (2005). Maliyyə terminlərinin izahlı və tərcümə lüğəti. Bakı: Ziya.
5. https://e-qanun.az/framework/54322
6. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafina dair 2023-2027-ci illər üçün Dövlət proqramı. 5 iyun 2023-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən 3910 №-li Sərəncamla təsdiq olunub.
7. İsmayılov, B. (2018), Strateji menecment. Bakı: Təhsil.
8. Əliyev, A., Quliyev, A. (2005). Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu;
9. Qasımlı, V. (2022). Yaşıl iqtisadiyyat. Bakı: Azprint.
10. https://president.az/az/articles/view/60429

Göndərilib: 01.06.2023 Qəbul edilib: 07.07.2023